UOT 336.02 (479.24)

# Azərbaycanda dövlət xərclərinin maliyyələşdirilməsində vergi gəlirlərinin rolu və inkişaf dinamikası



**Əhmədov Orxan Seyfəddin oğlu***
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti

## Xülasə

*Tədqiqatın məqsədini* - Azərbaycan müstəqillik əldə etdikdən sonrakı dövrlərdə dövlət xərclərinin vergi gəlirləri ilə maliyyələşdirilməsi vəziyyətini müəyyən etmək təşkil edir.

*Tədqiqatın metodologiyası* - statistik təhlil, analiz, sintez üsulları ilə vergi gəlirlərinin dövlət xərclərini ödəmə səviyyəsinin dəyərləndirilməsi.

*Tədqiqatın nəticəsi* - vergiləndirmədən əldə edilən gəlirlərin xərclənməsinin yaradacağı fayda ilə vergi ödəyicisinə etdiyi təsiri (*gəlirinin azalması*) bərabərləşdirmək surətiylə, dövlət xərcləmələri yoluyla sosial rifahın yüksəldilməsinə xidmət.

*Tədqiqatın məhdudiyyətləri* – vergidənyayınma və potensial vergi gəlirləri məsələləri tədqiq olunmamışdır.

*Tədqiqatın əhəmiyyəti* - Ölkə iqtisadiyyatının inkişafının ayrı-ayrı dövrlərində vergi daxilolmalarının dövlət xərclərini qarşılaması vəziyyətinin və onun səbəblərinin öyrənilməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - Tədqiq edilən problemin bəzi cəhətlərinin müəyyən edilməsi, bir çox faktların ilk dəfə elmi dövriyyəyə çıxarılması.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, dövlət xərcləri, vergi gəlirləri*

## 1. Giriş

Məlum olduğu kimi bazar iqtisadiyyatı ölkələrində görülən işlər və göstərilən xidmətlər xüsusiyyətlərinə görə dövlət və ya özəl sektor tərəfindən həyata keçirilir.

* Bakı. AZ1001. İstiqlaliyyət küçəsi, 6
orxan.ehmedov@gmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

Özəl sektorun həyata keçirmədiyi və ya həyata keçirə bilmədiyi xidmətlər dövlət tərəfindən yerinə yetirilir. Bu xidmətləri yerinə yetirmək üçün isə dövlət maliyyə vəsaiti ayırmalı olur.

Bu xərclərin maliyyələşdirilməsi büdcə vasitəsilə həyata keçirilməkdədir. Azərbaycanda Dövlət Büdcəsi, Naxçıvan Muxtar Respublikası Büdcəsi, Dövlət Neft Fondu, Sosial Müdafiə Fondu birlikdə icmal büdcəni təşkil edir. Büdcənin ən önəmli gəlir mənbəyi isə sözsüz ki, vergilərdir. Azərbaycanda vergi gəlirlərinin dövlət xərclərini qarşılaması istiqamətindəki inkişafı müstəqillik əldə etdikdən bu günə kimi davam etməkdədir. Araşdırmamızın predmetini ayrı-ayrı dövrlərdə vergi gəlirlərinin dövlət xərclərini qarşılaması vəziyyətini və onun xüsiyyətlərini müəyyən etmək təşkil edir.

## 2. Dövlət xərcləri

Dövlət xərclərini dar və geniş mənada izah etmək olar. Dar mənada dövlət xərcləri dövlət tərəfindən pul formasında edilən xərcləmələrin məcmusudur. Burada mərkəzi və yerli özünüidarəetmə orqanları tərəfindən edilən xərclər nəzərdə tutulmaqdadır. Geniş mənada isə dövlət tərəfindən görülən bütün işlərin həyata keçirilməsi üçün lazım olan ünsürləri əhatə etməkdədir. Buraya isə əlavə olaraq dövlət idarə, təşkilat və müəssisələrinin xərcləmələri, sosial sığorta ödəmələri, dövlət aktivlərində meydana gələn azalmalar və s. daxildir [1]. Ancaq dövlət xərcləri dedikdə əsasən onun birinci mənası nəzərdə tutulur.

Dövlət xərcləri bir qayda olaraq sosial iqtisadi məqsədlərin reallaşdırılmasına xidmət edir. Bu baxımdan dövlətin sosial-iqtisadi məqsədləri [4, 16]:

- ❑ Resursların istifadəsində və bölgüsündə səmərəliliyin təmin edilməsi.
- ❑ İqtisadi sabitliyi təmin etmək.
- ❑ İqtisadi inkişaf və artımı təmin etmək
- ❑ Regionların sosial iqtisadi inkişafını və onlar arasında fərqlərin azaldılmasını təmin etmək.
- ❑ Əhalinin gəlirləri arasındakı fərqlərin azaldılması
- ❑ İctimai rifahı və sosial müdafiəni təmin etmək və s.

Dövlətin sosial-iqtisadi məqsədlərinin reallaşdırılması üçün həyata keçirilən dövlət xərclərinin bir sıra xüsusiyyətləri vardır. Belə ki: Dövlət xərcləri pul şəklində həyata keçirilir; ictimai ehtiyacları qarşılamaq üçün dövlət mal və xidmətləri özü istehsal edə biləcəyi kimi, satın almağa da üstünlük verə bilər. Ancaq hər iki halda xidmətin qarşılığı pul şəklində ödənir. Günümüzdə mal və xidmətin qarşılığında mal və xidmət ödənməsi istisna təşkil edir. Dövlət xərcləri müəyyən bir ictimai ehtiyacı qarşılamaq məqsədilə həyata keçirilir; Sosial yönümlü bazar iqtisadiyyatı anlayışının nəticəsi olaraq ictimai ehtiyaclar artmış və bu da həmin ehtiyacları qarşılamaq üçün edilən xərcləri yüksəltmişdir. Dövlət xərcləri daim artır; Dövlət xərclərinin daim art-

ması xüsusiyyətinin səbəbləri iqtisadçılar tərəfindən müxtəlif cür izah edilir. Məsələn, Alman alimi Adolf Vagnerə görə [2] iqtisadiyyatın inkişafı ilə bərabər həm mövcud dövlət xidmətləri artır, həm də yeni dövlət xidmətləri meydana gəlir. Başqa bir deyişlə, iqtisadi və sosial inkişafın nəticəsi olaraq dövlət tərəfindən həyata keçi-rilən xidmətlərdəki artış büdcə xərclərini də daim artırmaqdadır. Amerikan alimi Simon Kuzzetsə görə [2] dövlət xərclərindəki artışın əsas səbəbləri əhalinin rifah səviyyəsinin yüksəldilməsi və müdafiə məqsədilə həyata keçirilən xərcləmələrin art-masıdır.

Maliyyəçi Visman isə [5] dövlət xərclərindəki artımı dövlət gəlirlərinin yük-səlməsi ilə izah etmişdir. Yəni, iqtisadi inkişafa bağlı olaraq artan vergi gəlirləri dövlət xərclərinin də artırılmasına imkan yaradır. Ümumləşdirsək, dövlət xərclərinin real artış səbəblərini iqtisadi, sosial, siyasi, texnoloji səbəblərə ayırmaq olar. İn-flyasiya, əhalinin sayının artması da dövlət xərclərini artıran amillər kimi görün-məkdədir.

Dövlət xərclərinin baza kateqoriyaları mövzusunda ayrı-ayrı iqtisadçılar müxtəlif fikirlərə sahibdirlər. A.Smit dövlətin 3 əsas vəzifəsi olduğunu qeyd etmiş və bu is-tiqamətdə xərclərin həyata keçirildiyini bildirmişdir [3]:

1. Ölkənin təhlükəsizliyini təmin etmək.
2. Ədaləti təmin etmək.
3. Özəl sektorun girməsinin mümkün olmadığı sahələrə dövlət investisiyalarını təmin etmək.

Azərbaycanda dövlət xərclərinin tərkibinə:

- Sosial xidmətlərə olan xərclər (*səhiyyə, təhsil, sosial müavinətlər*);
- İstehsal təsərrüfat xərcləri (*sənayeyə, infrastruktura qoyulan kapitallar, mənzil-kommunal xərcləri*);
- Müdafiə xərcləri;
- İnzibati idarəetmə xərcləri (*dövlət orqanlarının saxlanması, işçilərin əmək haqqı və s. üçün xərclər*);
- Dövlət borcu ilə əlaqədar xərclər və s. daxildir.

## 3. Dövlət xərclərinin maliyyələşdirmə mənbəyi kimi vergilər

Müasir dövrdə dövlət xərclərini qarşılamaq üçün gəlir mənbələrini vergi gəlirləri və alternativ gəlir mənbələri olmaqla iki yerə bölmək mümkündür. Vergi gəlirləri müxtəlif növ vergilərdən daxil olan gəlirlərdən ibarətdir. Alternativ gəlir növləri borclar, inflyasiya mədaxilləri, dövlət rüsumları, dövlət mülkiyyətindən və ehtiyat-larından, dövlət müəssisələrindən və s. əldə olunan gəlirləri əhatə edir. Burada borc gəlirləri qeyri-real qalanları isə real gəlirlərdir. Çünki gələcəkdə borcların ödənilməsi real gəlirləri səfərbər etmək lazım gələcək, bu real gəlirlər isə nə vaxtsa kompen-sasiya edilməli, ya da həqiqi dövlət gəlirləri hesabına qaytarılmalıdır.

Hazırda alternativ gəlir növlərinin həcmi xeyli artsa da, ümumilikdə götürdükdə onlar dövlət büdcəsinin az bir hissəsini təşkil edir. Onu da qeyd etmək lazımdır ki, bir çox neftlə zəngin olan ölkələrin dövlət büdcələrində qeyri-vergi gəlirləri (*İranda 62%, BƏƏ 72%, Omanda 70%*) üstünlük təşkil edir [7].

Vergilər dövlət xərclərinin qarşılanmasının ən qədim və ənənəvi maliyyə mənbəyidir. Hələ qədim Yunanıstanın öz vergi sistemi vardı və orada 10-20% dərəcələri arasında gəlir vergisi tutulurdu. Vergi verənlərdən əldə olunan bu pul vəsaiti muzdlu orduların saxlanmasına, məbəd və müdafiə ehkamlarının ucaldılmasına, yol çəkilişinə, yoxsullara yardım edilməsinə, bayram şənliklərinin keçirilməsi və digər bu kimi ehtiyaclara sərf olunurdu.

Qədim Romada isə dinc dövrlərdə vergi yığılmır, xərclər ictimai ərazilərin icarəyə verilməsi yolu ilə örtülürdü. Müharibə vaxtlarında isə Roma vətəndaşları sərvətlərinin həcminə görə vergiyə cəlb olunurdular [12].

Dövlətin iqtisadiyyata müdaxilə etməməsinin vacibliyini irəli sürmüş və iqtisadiyyatın öz-özünü tənzimləyə biləcəyi (görünməz əl) fikrini müdafiə etmiş klassik iqtisadçılar dolayı olaraq vergilərin sadəcə dövlət xərclərini qarşılaması məqsədinə xidmət etməli olduğunu qeyd edirdilər.

Ancaq günümüzdə vergilər dövlət xərclərinin maliyyələşdirilməsi mənbəyi olmaqla yanaşı iqtisadi, sosial və digər məqsədlər də daşımaqdadır. Əsas məqsədinin dövlət xərclərini qarşılamaq olsa belə vergi ilə bağlı qərarlar qəbul edilərkən vergilərlə qarşılanan xərclərin yaradacağı fayda ilə vergi ödəyicilərinə etdiyi təsir arasında balans yaradılması mühüm məsələlərdəndir [17]. Bunun üçün bir sıra məqamlara diqqət edilməsi vacibdir:

- vergi yükü optimal bir şəkildə bölüşdürülməli;
- vergilərin toplanması və ödənməsi xərcləri minimum səviyyədə saxlanılmalı;
- vegiləmə rəqabət baxımından tərəfsiz olmalı;
- investisiya, məşğulluq, yığıma mənfi təsir göstərməməlidir.

Azərbaycanda da dövlətin mühüm gəlir mənbələrindən biri vergilərdir. Belə ki, 2003-cü il yanvarın 1-dən qüvvəyə minən "Büdcə Sistemi Haqqında" Azərbaycan Respublikasının qanununun 9-cu maddəsinə əsasən dövlət xərclərinin maliyyələşdirmə vasitəsi olan dövlət büdcəsinin gəlirləri aşağıdakılardır:

- Vergilər;
- Qrantlar (*xarici ölkələrdən daxil olan qrantlar, beynəlxalq təşkilatlardan daxil olan qrantlar, dövlətin idarəetmə sektorunun müxtəlif həlqələrindən daxil olan qrantlar*);
- Digər gəlirlər (*mülkiyyətdən gəlirlər-faizlərdən gəlirlər, dividendlərdən gəlirlər, dövlət mülkiyyətində olan müəssisələrdən ayırmalar, Dövlət Neft Fondundan daxilolmalar, icarə haqqı üzrə daxilolmalar, mal və xidmətlərin satışndan da-xilolmalar, dövlət əmlakının satışından daxilolmalar; cərimə və sanksiyalar üzrə daxilolmalar; könüllü köçürmələr üzrə daxilolmalar və s.*).

## 4. Azərbaycan Respublikası vergi sisteminin formalaşması və vergi gəlirlərindəki dəyişmələr

Azərbaycan vergi sisteminin qanunvericilik bazasının və idarəetmə orqanlarının yaradılması 1991-1993-cü illərdə həyata keçirilmişdir. Öncə 1991-ci ildə "Əlavə Dəyər Vergisi Haqqında", "Aksiz Vergisi Haqqında" qanunlar, 1992-ci ildə "Mənfəət Vergisi Haqqında", "Gəlir vergisi Haqqında", "Dövlət Vergi Xidməti Haqqında" qanunlar qəbul edilmiş və Vergi İdarəsi yaradılmışdır. Sonradan - 1993-cü ildə isə "Torpaq Vergisi" haqqında qanunvericilik formalaşdırılmışdır.

Bu dövrdə diqqət çəkən digər məqamlardan biri dövlət xərclərinin qarşılanması üçün yüksək dərəcəli vergilərin tətbiq edilməsidir. Misal olaraq, 1992-ci ildə əlavə dəyər vergisi 28%, mənfəət vergisi 35%, gəlir vergisinin yüksək həddi isə 55% olmuşdur [13]. Qeyd etmək lazımdır ki, bu dövrdə vergi gəlirlərinin büdcə xərclərinin təxminən 56%-74%-ni təşkil etməkdəydi.

1995-ci ilindən etibarən ölkə iqtisadiyyatında makroiqtisadi sabitliyin əldə olunması ilə büdcənin gəlir-xərc balansının müsbət istiqamətdə inkişafına kömək etmişdir. Dövlət xərclərinin azaldılması və bu xərclərin böyük ölçüdə vergi gəlirləri kimi normal qaynaqlardan qarşılanmasına çalışılmışdır. Vergi gəlirləri və onların büdcədəki payları artmağa başlamışdır. 1996-cı ildən etibarən artıq büdcə kəsiri böhran döründə olduğu kimi emissiya ilə deyil, daxili və xarici borclanma mexanizmləri ilə örtməyə üstünlük verilmişdir. Bundan başqa, dövlət xərcləri ilə vergi gəlirləri arasında fərqi azaltmaq üçün dövlət xərclərinin azaldılmasına, vergi daxilolmalarının isə artırılmasına imkan yaranmışdır.

1998-ci ildən yeni vergi qanunun hazırlanması və vergi idarəçiliyinin gücləndirilməsi yönündə mühüm tədbirlər həyata keçirilməyə başlandı. Bunun məntiqi nəticəsi olaraq 11 iyul 2000-ci il tarixində qəbul edildi və 2001-ci il yanvar ayından qüvvəyə mindi. Həmin vaxtdan etibarən vergi dərəcələri də aşağı salındı: ƏDV-si 20%-dən 18%-ə (2001-ci ildən etibarən), mənfəət vergisi 2004-cü ildən 24%-dək endirilmiş, sadələşdirilmiş vergi tətbiq edilməyə başlanmışdır [14].

Vergi sistemi sahəsində daha bir mühüm addım 11 fevral 2000-ci ildə baş dövlət vergi müfəttişliyi bazasında yaradılmış Vergilər Nazirliyi olmuşdur. Bu isə vergi siyasətinin mərkəzləşdirilmiş formada yerinə yetirilməsində, dövlət büdcəsinə vergilərin toplanmasında və ona nəzarət edilməsində səmərəliliyinin təmin edilməsi istiqamətində müsbət dəyişikliklərə səbəb olmuşdur.

2000-ci ildən ÜDM-un artımı büdcəyə vergi daxilolmalarını da artırmış, buna paralel olaraq dövlət xərcləri də önəmli ölçüdə artırılmağa başlanmışdır. Belə ki, büdcəyə vergi daxilolmaları 2000-ci ildə 510,4 mln manat idisə, bu rəqəm 2005-ci ildə 1427,7 mln. manata çatmışdır və bu həmin ilin bütün büdcə gəlirlərinin 69,5%-ni təşkil etmişdir [9]. Buna müvafiq olaraq büdcə xərcləri də artırılmış və 2005-ci ildə 2140,7 mln. manata yüksəldilmiş [15], vergi daxilolmaları isə bu xərclərin

66,7% qarşılamışdır. Qeyd etmək lazımdır ki, 2000-ci ildə vergi daxilolmalarının büdcə gəlilərində payı 71.4%, 2001-ci ildə isə bu rəqəm 73,9% olmuşdur. Göründüyü kimi, bu illərdə vergi daxilolmaları əhəmiyyətli dərəcədə artmış, ancaq onun büdcə gəlirlərindəki payı və büdcə xərclərini ödədiyi hissəsi azalmışdır. Buna isə əsas səbəb neftin qiymətlərinin artması və 1999-cu ildə yaradılmış Neft Fondu ilə Dövlət Büdcəsi arasında 2003-cü ilə qədər heç bir əlaqənin olmaması idi. 2003-cü ildən isə Neft Fondundan büdcəyə transferlər ilə bərabər vergi daxilolmalarının büdcə gəlirlərindəki payında, eləcə də büdcə xərclərini qarşılama payında azalmalar müşahidə olunmuşdur.

Azərbaycan iqtisadi artım tempinə görə dünyanın lider dövlətlərindən biridir. 2005-2010-cu illərdə ölkədə vergi daxilolmalarındakı və neft gəlirlərindəki artım dövlət gəlirlərini yüksəltmiş və bunlar da dövlət xərclərinin artırılmasına imkan yaratmaqdadır. Qeyd edilən illərdən başlayaraq bir çox sosial, iqtisadi inkişaf proqramlarının həyata keçirilməsinə başlanmış (*2004-2008, 2009-2013-cü illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişaf proqramı"*), vergi dərəcələri endirilmiş, bunlarla yanaşı vergi daxilolmaları artmağa davam etməkdədir.

Aşağıdakı cədvəldən vergi daxilolmalarını və onun büdcə xərclərini qarşılama faizini aydın görmək mümkündür:

**Cədvəl. 2005-2010-cu illər üzrə vergi daxilolmaları (mln manat) və onların büdcə xərclərinə nisbəti (%)**

| *İllər* / *Göstəricilər* | *2005* | *2006* | *2007* | *2008* | *2009* | *2010* |
|---|---|---|---|---|---|---|
| B.G | 2055,2 | 3868,8 | 6047,0 | 10762,7 | 10325,9 | 11402,5 |
| B.X | 2140,7 | 3789,7 | 6059,5 | 10680,0 | 10567,9 | 11766,0 |
| V.G | 1427,7 | 2714,7 | 4550,3 | 5747,5 | 4113,4 | 4292,8 |
| V.G/B,X | % 66,7 | % 71,6 | % 75,0 | % 53,8 | % 38,9 | % 36,5 |

*Mənbə: Azərbaycan Respublikasının Vergilər Nazirliyinin (www.taxes.gov.az) və AR Mərkəzi Bankının rəsmi məlumatları (www.cbar.az) əsasında tərtib olunmuşdur.*

Cədvəldən də göründüyü kimi 2005-ci ildən 2008-ci ilə qədər vergi gəlirləri və büdcə xərcləri bir qayda olaraq artmışdır. Ancaq 2005-ci ildə büdcə xərclərinin 66,7%-i, 2007-ci ildə 75%-i vergilərlə qarşılandığı halda ötən iki ildə büdcə xərclərinin yarıdan çox hissəsi digər gəlirlər hesabına ödənmişdir ki, buna da səbəb 2009-cu ildə vergi daxilolmalarının nisbətən aşağı düşməsi olmuşdur. 2010-cu ildə isə vergi gəlirləri əvvəlki ilə nəzərən artsa da, büdcə xərcləri daha çox artırılmışdır.

Bütün bunlar bir daha onu göstərir ki, 2005-2010-cu illərdə Azərbaycanda dövlət xərclərinin maliyyələşdirilməsində vergi gəlirlərinin rolu mühüm olmuş və o iqtisadiyyatın inkişaf dinamikasına müsbət təsir göstərmişdir.

## 5. Nəticə

Araşdırmadan belə nəticəyə gəlmək olar ki, müstəqilliyimizin ilk illərində dövlət xərclərinin qarşılanmasında böyük çətinliklər yaşansa da, ardıcıl uğurlu islahatlar və məqsədyönlü siyasət nəticəsində artıq bu problem geridə qalmışdır.

Aydındır ki, dövlət xərclərindəki artış, dövlət gəlirlərindəki artışla bağlıdır. Bu mənada iqtisadi inkişafla əlaqədar olaraq artan vergi gəlirləri nəticəsində dövlət xərclərində də yüksəliş meydana gələr. Deyilənləri diqqətə alaraq həyata keçirdiyimiz araşdırmada müəyyən olunmuşdur ki, Azərbaycanda ölkə iqtisadiyyatının inkişafının əsas göstəricilərindən olan ümumi daxili məhsulun həcmi ilbəil artmış (*2009-cu ildə 34578.7 mln, 2010-cu ildə isə 41574.7 mln manat olmuşdur*) [7] və buna müvafiq olaraq vergi daxilolmaları yüksəlmiş, nəticədə dövlət xərclərinin artırılmasına imkan yaranmışdır.

Daha bir məqamı da diqqətə çatdıraq ki, dövlət xərclərinin vergi gəlirləri ilə qarşılanması zamanı bu xərclərin yaradacağı sosial fayda ilə vergi ödəyicilərinə etdiyi təsir (*gəlirlərinin bir qismindən məhrum edilməsi*) arasında balans yaradılması mühüm məsələlərdəndir. Bu baxımdan vergi dərəcələrinin optimallaşdırılması, vergi təşviqləri sahəsində atılan addımlar böyük əhəmiyyət kəsb edir. Bütün bunlar ölkə iqtisadiyyatının, elm, təhsil və mədəniyyətin inkişafına, insanların rifah vəziyyətinin, həyat səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərir.

### Ədəbiyyat siyahısı:


1. Çavuşoğlu Filiz "Kamu Harcamalarının Tanımı", Bandırma Bil Dershanesi KPSS Kursu, 2009.
2. http://www.bandirmabil.com/pages/maliye_muhasebe/05_kamu_harcamalari.pdf (05.09.2011).
3. Uzay Nisfet, "Kamu Büyüklüğü ve Ekonomik Büyüme Üzerindeki Etkileri", Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Sayı: 19, Temmuz-Aralık 2002 / http://iibf.erciyes.edu.tr/dergi/08_Uzay.pdf (05.09.2011)
4. Deyneli Fatih "Kamu Maliyesi, Kamu Harcamaları", Pamukkale Universitesi İktisadi ve İdari Bilimler Fakültesi Maliye Bölümü, 22.11.2010.
5. http://maliye.pau.edu.tr/kamu.pdf (05.09.2011).
6. Akçağlayan Anıl və Kayıran Meltem, "Türkiye`de Kamu Harcamaları ve Gelirleri: Nedensellik İlişkisi Üzerine Bir Araştırma", Osmangazi Üniversitesi İİBF Dergisi, Eskişehir, Ekim 2010, səh: 129-130.
7. http://iibf.ogu.edu.tr/dergi/dergi/2010-2/2010_2_7.pdf (17.09.2011).
8. Biyan Özgür, "Vergilemenin Nihai Niteliğinden Sapmasının Siyasal, Ekonomik ve Sosial Nedenleri", Bilanço, SMMMO, sayı: 57, Bursa, mart 2004, s. 18.
9. http://www2.bayar.edu.tr/iibf/maliye/sureyya_sakinc/docs/.../OzgurBIYAN.pdf (17.09.2011).
10. Bağırzadə Elşən, Azərbaycan Dövlət İqtisad Universiteti, Türk Dünyası İşletme Fakültesi, DTM, Ankara 2009.
11. http://elsenbagirzade.files.wordpress.com/2011/03/azerbaycan-sunum.ppt (10.10.2011).
12. http://library.adau.edu.az/upload/book/176_maliyye_2.pdf (17.09.2011).
13. Musayev Qəray, Əhmədov Fariz "Azerbaycan Kamu Mali Sistemindeki Gelişmeler Işığında Kamu Harcamaları Finansmanın Sürdürebilirliği", 3. Uluslararası Balkanlarda Sosial Bilimler Kongresi, Mostar, Bosnia - Hersoqovina 30-31 Mayıs 2011.
14. www.taxes.gov.az. –Ar VN-nin saytı
15. http://cbar.az/assets/85/Esas_makroiqtisadi_gostericiler.pdf (05.09.2011).
16. Akel Gökçe, "Maliye Politikasının iktisat Politikası İçindeki Yeri", T.C Dokuz Eylül Universitesi, İktisadi ve idari bilimler fakültesi, Maliye bölümü 17.10.2006
17. http://www.mcivriz.com/maliyeiktisat.pdf

**Ахмедов Орхан Сейфаддин оглу**
Азербайджанский Государственный Университет, магистрант

## Динамика развития и роль налоговых доходов в финансировании государственных расходов в Азербайджане

**Аннотация**

*Цель исследования* – определение состояния финансирования государственных расходов за счет налоговых поступлений после восстановления независимости в Азербайджане.

*Методология исследования* – оценка уровня погашения государственных расходов за счет налоговых поступлений методами статистического анализа, анализа и синтеза.

*Выводы исследования* – определение динамики развития и роли налоговых доходов в финансировании государственных расходов, влияние на социальное благополучие страны.

*Ограничения исследования* – не исследованы вопросы уклонения от уплаты налогов и потенциальных налоговых доходов.

*Практическая значимость исследования* – изучение причин и уровня погашения государственных расходов за счет налоговых поступлений в течение отдельных периодов развития экономики страны.

*Оригинальность и новизна исследования* – определение некоторых аспектов исследуемой проблемы, использование ряда фактов в научной литературе впервые.

**Ключевые слова:** *экономика Азербайджана, государственные расходы, налоговые поступления.*

**Ahmedov Orxan Seyfaddin oglu**
Azerbaijan State Economic University, graduate student

## Tax revenues as a source of public expenditure in Azerbaijan

**Abstract**

*Purpose* - After Azerbaijan gained its independence to determine the condition of the state is meeting the costs of tax revenues.

*Design/metodology* - statistical analysis, analysis, synthesis.

*Findings* - The costs of tax revenues by the taxpayer to establish the effect on profit (*income decreasing*), even the government through social spending, aimed at ensuring.

*Research limitations* - Tax evasion and potential tax revenues are not investigated.

*Practical implications* - different periods of national economic development research tax revenues to pay the costs the state government and its causes.

*Originality/value* - the defining of some features of the researching problem, the discovering of many facts for the first time.

**Key words:** *Azerbaijan's economy, state expenditures, tax revenues.*

**JEL Classification Codes:** E62, H2, H21, H5, H50, H72, O23

Məqalə redaksiyaya daxil olmuşdur: 20.09.2011.
Təkrar işləməyə göndərilmişdir: 30.09.2011.
Çapa qəbul olunmuşdur: 23.01.2012.